# Rusiya rəsmisinin sərgilədiyi mövqe qəbuledilməzdir

## Vladimir Medinskinin iddiası bir çox suallar ortaya çıxarıb

**Rusiya Federasiyası Prezidentinin köməkçisi Vladimir Medinski müsahibə zamanı keçmiş Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı faktları təhrif edərək, Qarabağ bölgəsini "mübahisəli ərazi" kimi təqdim edib. Rusiya rəsmisinin belə mövqe sərgiləməsi təbii ki, bir çox suallar ortaya çıxarıb.**

Sosial Tədqiqatlar Mərkəzinin əməkdaşı Aqşin Kərimov qəzetimizə açıqlamasında bildirib ki, Vladimir Medinskinin Ukraynadakı müharibənin gələcəyini keçmiş Qarabağ münaqişəsi ilə müqayisə etməsi Rusiyanın Qərb qarşısında geosiyasi qələbə nəzəriyyəsini təbliğ etmək cəhdidir. Medinskidən sonra Rusiya Xarici İşlər Nazirliyinin nümayəndəsi Mariya Zaxarovanın Azərbaycan və Ermənistana NATO ilə əlaqədar diplomatik xəbərdarlıq mətnini səsləndirməsi də Kremlin Qərbə güzəştə getməkdə maraqlı olmadığını ifadə edir: "Lakin Rusiyanın bu ritorikası nə regionda Azərbaycanın strateji imkanlarını zəiflətmək, nə də Bakının NATO ilə əlaqələrindəki konturları zədələmək iqtidarındadır. Azərbaycan Rusiya ilə olduğu kimi NATO və Çinlə də strateji əlaqələr quraraq bunu inkişaf etdirib və münasibətlərdəki meyarları yenilənən dünya nizamına uyğunlaşdırır".

Ekspert qeyd edib ki, Medinskinin açıqlamasının başqa bir tərəfi isə Azərbaycan-Ermənistan əlaqələrində yaranmış yeni motivasiya mənbələrinə xələl gətirmək məqsədinə xidmət edir. Rusiya Azərbaycan və Türkiyə strateji müttəfiqliyinin Ermənistanın ictimai-siyasi sferasına, təhlükəsizlik arxitekturasına cavabdehlik daşıya bilmək potensialına yaxınlaşdığını görməkdədir. Bu, perspektivdə Ermənistanın Rusiyanın orbitindən çıxa bilməsi deməkdir. Üstəlik, Azərbaycanla Türkiyə Ermənistanın Qərbin çətiri altından da çıxarılmasına çalışaraq regionda yeni təhlükəsizlik modeli qurmağa doğru getməkdədir. Rusiya ABŞ ilə qarşıdurmada olsa da, Ermənistanla əlaqədar sövdələşmə strategiyasının hazırlanmasını Vaşinqtondan istəyə bilər. Deməli ki, Moskva regionda Azərbaycan-Türkiyə müttəfiqliyi önünə ABŞ-Rusiya sövdələşməsi ilə çıxmaqda maraqlı tərəf kimi görünür.



A.Kərimov vurğulayıb ki, Medinskinin dediklərinin üçüncü tərəfi isə Rusiya-Ukrayna müharibəsi kontekstində Kremlin Azərbaycandan istədikləri ilə əlaqəlidir: "Ria Novosti"də sonrakı günlərdə yayımlanan məqalə həmin mətləbləri açır. Ukrayna ərazilərinin Rusiyanın ərazi subyekti kimi tanınmasına çağırışlar isə Azərbaycan üçün qəbuledilməzdir. Rusiyanın istəyi regional təhlükəsizlik və sülhün təmin edilməsi məqsədləri ilə bir araya sığmır. Nəticə olaraq, Rusiya Medinskinin timsalındakı strategiya ilə regionda "oyun qaydaları"nı yenidən formalaşdırmağa çalışsa da, bu, Azərbaycanın manevrlərinə əngəl yarada bilməyəcək".

***Ə.QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 14 iyun (№121).- S.8.